

■ Herman Hesse

# Yazıçı kredosu

*Esse*

**Bizim dövrümüzdə yazıçı ilhamlı, ruhi mərtəbəsi olan insan tipidir. O, havasız maşın dünyası ilə intellektual fəaliyyət dünyası arasında küncə qısılaraq boğulmağa məhkum olunmuşdur. Axı yazıçı bizim dövrümüzün fanatik şəkildə mübarizə apardığı qüvvəni təmsil edir və qoruyur. Buna görə dövrü günahlandırmaq axmaqlıqdır.**

Bizim yaşadığımız zaman o birilərindən nə yaxşıdır, nə də pis. Dövrünün məqsəd və ideallarıyla ayaqlaşa bilənçün o, cənnət, onlara qarşı duranlar üçünsə cəhənnəmdir. Beləliklə də, dövrümüz bizim üçün - yazıçılar üçün cəhənnəmdir. Əgər yazıçı öz adına, ideallarına sadiq qalmaq niyyətindədirsə, o, nə həyatı sənaye və təşkilatlarla fəth edən istilaçıların başgicəlləndirən nailiyyətlərinə, nə də hal-hazırda universitetlərimizdə müşahidə etdiyimiz mənəviyyatı rasionalizmə tabe edən humanitar sahələrə qoşulmamalıdır. Yazıçının yeganə vəzifəsi ruhun xidmətçisi, müdafiəçisi və cəngavəri olmaqdır. Və buna görə də bu gün, daha doğrusu dünya tarixinin məhz indiki anında o, hər kəsin tab gətirə bilməyəcəyi təkliyə və iztirablara məhkum olunmuşdur. İndi Avropada çox az yazıçı var. Və trazgizmin əlamətlərindən və hətta donkixotçuluqdan məhrum olduqlarını onların heç biri haqqında demək olmaz. Amma buna baxmayaraq, Avropa mütaliəçi bürgerlərin (şəhərlilərin) çox sevdiyi, öz istedad və zövqü ilə onların ideal və məqsədlərini tərifləyən ”yazıçılarla” doludur. Bu, hal-hazırda müharibədir, sabahsa pasivizm (hər cür müharibəni, o cümlədən milli azadlıq müharibəsini və başqa ədalətli müharibələri inkar edən cərəyan) və s. olacaq.

Lakin, həqiqətən də, yazıçılar Yer kürəsinin cəhənnəmində - havasızlığında susaraq məhv olub gedir, ya da ki ağrı-acıları qəbul edərək, taleyə boyun əyir. Ötən dövrlərdə şairlərə qoyulan hörmətin, verilən dəyərin indi işgəncəyə çevrildiyini görəndə də buna etiraz etmirlər. Onlara - məhz həmin yazıçılara sevgim var. Mən onları sevir, onlara hörmət edir və onların qardaşı olmaq istərdim. Biz əzab çəkirik. Lakin nə etiraz edir, nə də müdafiə olunmaq üçün cəhd göstərmirik. Maşınlar dünyasında və ağıldankəm barbarlığın ağuşunda boğulub gedirik. Bu hava bizim nəfəsimizə uyğun olmamasına baxmayaraq, buradan qopub qaçmağa cəhd göstərmirik. Bütün bu iztirabları, boğulmaqları və əzab-əziyyəti ümumi dünya taleyinin bizə düşən qisməti, missiyası və sınağı kimi qəbul edirik. Dövrümüzün heç bir idealına - nə bolşevik, nə də fabrikçilərin ideallarına inanırıq. Lakin insanın ölümsüzlüyünə və insan obrazının bütün təhriflərdən, bütün korlanmalardan sonra yenilənərək, istənilən cəhənnəmdən təmiz, üzü ağ çıxacağına inanırıq! Ağrılarını, yuxularını oxucu qarşısında açmaqla biz müasirliyi nə doğrultmağa, nə öyrətməyə, nə də yaxşılaşdırmağa çalışırıq. Biz təkrar-təkrar ona obrazlar və ruh dünyasını açmaq istəyirik. Bu yuxular bəzən qorxulu, bəzən qəddar, obrazlar isə bəzən dəhşətli, ürküdücü olur. Və bəzi şeylər haqqında susaraq, yalan deməyə, nəyisə gizlətməyə ixtiyarımız yoxdur. Bu işlə yetərincə




brüger ”yazıçıları” canfəşanlıqla məşğuldurlar. Biz insan ruhunun, mənəviyyatının təhlükədə olduğunu, uçurumun qırağında dayandığını gizlətmirik. Lakin biz ölməzliyə inandığımızı da gizlətmirik.